| | |
|---|---|
| **AKTIN NÖVÜ** | AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI |
| **QƏBUL EDİLDİYİ TARİX** | 30.06.2011 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 105 |
| **ADI** | "Təhlükəli yoluxucu xəstəliklərin siyahısı"nın təsdiq edilməsi barədə |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 30-06-2011, Nəşr nömrəsi: 06, Maddə nömrəsi: 576) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 30.06.2011 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 220.010.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 14201130060105 |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 01.07.2011 |

## “Təhlükəli yoluxucu xəstəliklərin siyahısı”nın təsdiq edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“İmmiqrasiya haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 12 mart tarixli 114 nömrəli Fərmanının 2-ci hissəsinin üçüncü abzasına və “Miqrasiya idarəetmə sisteminin inkişafı və “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2008-ci il 24 iyun tarixli 658-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 5 avqust tarixli 805 nömrəli Fərmanının 5.2.2-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Təhlükəli yoluxucu xəstəliklərin siyahısı” təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 30 iyun 2011-ci il
105

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2011-ci il 30 iyun tarixli 105 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

### Təhlükəli yoluxucu xəstəliklərin
### S İ Y A H I S I

~~1. Hemorragik virus xəstəlikləri~~

~~2. Sarı qızdırma~~[1]

3. İnsanın immunçatışmazlığı virusu infeksiyası

4. B və C hepatitləri.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 27 fevral 2013-cü il tarixli **31** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Azərbaycan” qəzeti, 2 mart 2013-cü il, 48; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 02, maddə 200**)

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 27 fevral 2013-cü il tarixli **31** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Azərbaycan” qəzeti, 2 mart 2013-cü il, 48; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 02, maddə 200**) ilə “Təhlükəli yoluxucu xəstəliklərin siyahısı”nın 1-ci və 2-ci hissələri ləğv edilmişdir.